**Anadolu Türk Eğitim Dergisi**
**Anatolian Turkish Journal of Education**
**ISSN:2867-5314**

**Yıl/Year: 2024 Cilt/Volume: 6 Sayı/Issue: 1 (Nahçıvan Özel Sayısı) ss/pp. 158-165**

**Makale Geliş Tarihi:** 24/04/2024
**Makale Kabul Tarihi:** 20/05/2024
**Makale Yayın Tarihi:** 05/06/2024
**Makale Türü:** Orijinal Araştırma Makalesi

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVANDA UŞAQ ƏDƏBİYYATININ ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİ*

**NEZAKET ISMAYİLOVA**
Prof. Dr. Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
nezaket.ismayilova@yahoo.com, ORCİD No: 0009-0007-3730-6838

**Özet**

Azərbaycan Respublikasının əldə etdiyi müstəqillikdən sonra uşaq ədəbiyyatı sahəsində yeni səpkili əsərlərin yazılmasına meyil artmışdır. Azərbaycan uşaq ədəbiyyatının son onilliklərdəki nailiyyətlərinə diqqət yetirdikdə bir daha bizə aydın olur ki, söz sənətimizin bu sahəsinin məhsuldarlığı inkişaf edir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı bütün istiqamətlərdə ciddi formalaşma prosesinə başladı. Azərbaycan Respublikası təhsil sistemində, təhsilin forma və məzmununda köklü dəyişikliklər etmək üçün ümummilli lider H. Əliyevin 15 iyun 1999-cu il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı” təsdiq edildi. Bu proqramın mahiyyət və məzmunundan və ümumiyyətlə, təhsilin dövlət həyatında oynadığı əvəzsiz rolundan danışarkən ümummilli liderimiz demişdir. “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini mədəniyyətini dünya standartlarına çatdırsın, o millət hər şeydən çox təhsilə fikir verməli, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Biz bu yolda gedirik. Əmin ola bilərsiniz ki, bu yolla gedəcəyik”. Son illərdə Naxçıvan ədəbi mühitində uşaq ədəbiyyatı ilə bağlı xeyli əsərlər yazılmışdır. Bunlardan “Uşaqlar və günəş” şeirlər, poemalar, hekayə və povestlər toplusunda əsasən, Naxçıvanda yaşayıb- yaradan şair və yazıçıların əsərləri toplanmışdır. Bundan başqa Naxçıvan Muxtar Respublikası Yazıcılar Birliyinin 2012-ci ildə kecirilmiş konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq tərtib edilmiş Tədbirlər Planına əsasən Uşaq ədəbiyyatına aid dörd kitab cap edilmişdir. Bunlardan “Poema və pyeslər”,(2014) “Təmsillər”,(2014) “Şeirlər”,(2017) “Şeir və hekayələr”(2014) Bu əsərlərin hamısı uşaq ədəbiyyatının inkişafına və zənginləşməsinə xidmət edir. Kitabda cap olunmuş bu əsərlərdə uşaq ədəbiyyatı ictimai və sosial məzmunu ilə öz ərazisini xeyli genişləndirmişdir. Uşaq şeirində qədim yurd yerlərimizin şəhidlərimizin, milli qəhrəmanlarımızın obrazını uşaq ədəbiyyatına gətirməklə gələcək nəsillərə örnək əsərlər yaratmalıyıq.

**Anahtar Kelimeler**:Naxçıvan, uşaq ədəbiyyaı, şeir, poema, təmsil, ədəbi mühit

# A CHILD IN NAKHCHIVAN DURING THE YEARS OF INDEPENDENCE MAIN DIRECTIONS OF DEVELOPMENT OF LITERATURE

**Abstract**

After the independence of the Republic of Azerbaijan, the tendency to write new works in the field of children's literature has increased. When we pay attention to the achievements of Azerbaijani children's literature in recent decades, it becomes clear to us once again that the productivity of this field of our word art is developing. In this sense, we see the first sprouts of children's literature. In recent years, many works on children's literature have been written in the literary environment of Nakhchivan. The collection of poems, poems, stories and narratives "Children and the Sun" is based on the works of poets and writers living and working in Nakhchivan. In addition, compiled in accordance with the instructions of the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic at the conference of the Writers' Union of Nakhchivan Autonomous Republic in 2012 According to the Action Plan, four books on children's literature were published. Among them are “Poems and plays”, (2014) “Fables”, (2014) “Poems”, (2017) “Poems and stories” (2014) All these works serve the development and enrichment of children's literature. In these works published in the book, children's literature has significantly expanded its territory with its social and social content. In children's poetry, we must create exemplary works for future generations by bringing the image of our ancient martyrs and national heroes to children's literature.

**Keywords:** Nakhchivan, children's literature, poetry, poem, fable, literary environment

**Atıf / Citation**

İsmayilova, N. (2024). Müstəqillik İllərində Naxçıvanda Uşaq Ədəbiyyatının Əsas İnkışaf İstiqamətləri. *Anadolu Türk Eğitim Dergisi*, *6* (1), 158-165.

Ismayilova, N. (2024). A Child in Nakhchivan during the Years of Independence Main Directions of Development of Literature, *Anatolian Turkish Journal of Education*, *6* (1), 158-165.

* Bu çalışmada “Yükseköğretim Kurumları Bilimsel Araştırma ve Yayın Etiği Yönergesi” kapsamında uyulması belirtilen tüm kurallara uyulmuştur.

# НАХЧЫВАНЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯРЕБЕНОК В ЛИТЕРАТУРЫ

После обретения Азербайджанской Республикой независимости усилилась тенденция к написанию новых произведений в области детской литературы. Когда мы обращаем внимание на достижения азербайджанской детской литературы за последние десятилетия, нам снова становится ясно, что продуктивность этой области нашего словесного искусства растет. В этом смысле мы видим первые ростки детской литературы. В последние годы в литературной среде Нахчывана написано много произведений по детской литературе. Сборник стихов, стихов, рассказов и повествований «Дети и Солнце» основан на произведениях поэтов и писателей, живших и творивших в Нахчыване, согласно Плану действий выпущено четыре книги по детской литературе. Среди них «Стихи и пьесы», (2014) «Басни», (2014) «Стихи», (2017) «Стихи и рассказы» (2014). Все эти произведения служат развитию и обогащению детской литературы. В этих произведениях, опубликованных в книге, детская литература значительно расширила свою территорию своим социальным и социальным содержанием. В детской поэзии мы должны создавать образцовые произведения для будущих поколений, привнося в детскую литературу образы наших древних мучеников и национальных героев.

## Giriş

Müstəqil Azərbaycan Respublikasının 18 oktyabr 1991-ci il tarixdə imzaladığı "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı - İstiqlal Bəyannaməsi cəmiyyət həyatında və ədəbiyyatda bütün cəbhə boyu milli, azad, demokratik düşüncənin inkişafına start vermişdir. Bu, həm də milli-demokratik məfkurə əsasında yaranan yeni tipli ədəbiyyatın və ictimai fikrinin də bəyannaməsi demək idi. (Əliyev, 1999; s.5)

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı bütün istiqamətlərdə ciddi formalaşma prosesinə başladı. Azərbaycan Respublikası təhsil sistemində, təhsilin forma və məzmununda köklü dəyişikliklər etmək üçün ümummilli lider H. Əliyevin 15 iyun 1999-cu il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" təsdiq edildi. Bu proqramın mahiyyət və məzmunundan və ümumiyyətlə, təhsilin dövlət həyatında oynadığı əvəzsiz rolundan danışarkən ümummilli liderimiz demişdir. "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini mədəniyyətini dünya standartlarına çatdırsın, o millət hər şeydən çox təhsilə fikir verməli, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Biz bu yolda gedirik. Əmin ola bilərsiniz ki, bu yolla gedəcəyik" (Əliyev, 1999; s.8)

Təbii ki, belə bir şəraitdə hər kəs öz öhdəsinə düşəni etməlidir ki, inkişaf və tərəqqi yolunu tuta bilək. Bildiyimiz kimi uşaqlar üçün yazılan əsərlər həcmcə azlıq təşkil etsə də, ümumilikdə uşaq psixologiyasını düzgün anlayan, onu istədiyi məcraya yönəltməyi bacaran, saf uşaq şüurunda mütərəqqi, pedaqoji tərbiyənin əsasını anlatmaq baxımından dəyərli nümunəvi əsərlər yazılmalı, müfəssəl təhlil olunmalı, oxuculara çatdırılmalıdır. Belə ki yeniyetmələrin, gənclərin dünya görüşünün inkişafında maraq dairəsinin genişlənməsində əxlaq və mənəviyyatının formalaşmasında, bədii zövqün cilalanmasında uşaq ədəbiyyatının rolu böyük və əhəmiyyətlidir (Axundov və Əfəndiyev, 2000; s.5)

## Əsas tədqiqat sahəsi

Mədəniyyət tariximizin ayrı-ayrı dövrlərində görkəmli mütəfəkkirlər, şairlər, elm və mədəniyyət xadimləri öz əsərlərində yeniyetmələrin dünyagörüşünün düzgün istiqamətləndirməsinə xüsusi diqqət yetirmiş, bunu ümumi tərəqqi işinin mühüm amili hesab etmişlər.Uşaqlar üçün bədii əsərlər yazmaq çətin, məsuliyyətli, eyni zamanda humanist bir işdir. Bu yazıçıdan həssas müşahidə qabiliyyəti, uşaq psixologiyasını dərindən duymaq, düşündüklərini sadə, aydın bir dillə qələmə almaq qabiliyyəti tələb edir Xalq şairi S. Vurğun bu barədə belə yazmışdır: "Uşaqlar üçün yazılmış hər bir əsərin əsasında məna gözəlliyi yaşamalıdır. Mənası dayaz, qayəsi və məqsədi aydın olmayan ötərgi hislər, tərənnüm olunan əsərlər uşağın hafizəsində ani bir qığılcım kimi parlayıb sönür." Dediyimiz məna gözəlliyi həqiqətlə nəfəs almalıdır. Bu sözlər nəcib, xeyirxah, cəmiyyətə gərəkli bir insan yetişdirilməsi üçün vətəndaş çağrısıdır.

Ən qədim dövrlərdən bu günümüzə qədər əski türklərin tarix və mədəniyyətinə, ədəbiyyatına nəzər saldıqda böyük, əzəmətli zamanın sınağından çıxdığının şahidi oluruq. Bu zaman kəsiyində türk millətləri

ululuğunu sübut etmiş olaraq bir kökün mənəvi dəyərini özündə birləşdirmişdir. Hər bir xalqın tarixi hər şeydən əvvəl, onun mədəniyyəti, incəsənəti və ədəbiyyatında yaşayır. Azərbaycan uşaq ədəbiyyatı yaşadığımız dünyanın maddi və mənəvi zənginliklərini yeni nəslə öyrətməli onları bu sərvətin varisi kimi tərbiyə etməlidir. Onun üçün də bu ədəbiyyatın yolu düzgün olmalıdır ki, gələcəkdə cəmiyyətə xidmət edən uşaq da tutduğu yolu düzgün seçə bilsin.

Bu baxımdan son illər Naxçıvan ədəbi mühitində uşaq ədəbiyyatı sahəsində əvvəlki illərə nisbətən irəliləyiş hiss olunur. Bu ədəbiyyatın təsir dairəsi xeyli artmış, zənginləşmiş, bədii dəyəri ilə seçilən əsərlər yazılmışdır.

Son illərdə Naxçıvanda "Uşaqlar və günəş" şeirlər, poemalar, hekayə və povestlər toplusunda gənc nəslin təlim-tərbiyə həsr olunmuş əsərlər başlıca yer tutur. Bu əsərlərin hamısı uşaq ədəbiyyatının inkişafına və zənginləşməsinə xidmət edir. Naxçıvan Muxtar Respublikası Yazıcılar Birliyinin 2012-ci ildə kecirilmiş konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq tərtib edilmiş Tədbirlər Planına əsasən Uşaq ədəbiyyatına aid dörd kitab töhfə edilmişdir. Bunlatdan "Poema və pyeslər",(2014) "Təmsillər",(2014) "Şeirlər",(2017) "Şeir və hekayələr"(2014) kitabları cap olunmuşdur."Poema və pyeslər" kitabında Həsənəli Eyvazlının "Tamahkarın qibəti"poeması, Ələsgər Nehrəmlinin "Süleyman peyğəmbər və göyərcinlər" poeması, Asim Yadigarın "Şir və caqqal" pyesi, İbrahim Yusifoğlu " Ceyranbulaq nağılı, Vüsal Səmavi (Pzayev) "Cəsur dovşan", "Cikcik xanım kimi poemalar yazılmışdır. Bu əsərlərdə yeni nəslə yüksək insani keyfiyyətlər, yaxşı arzularının ardınca getmək, dostluq və yoldaşlıq münasibəti,sabahını düşünmək, insanpərvərlik kimi ideyalar aşılanır.

2014 cü ildə ayrıca kitab olan"Təmsillər" də Elman Həbibin "Alacəhrə", "Köhnə dostlar", "Girovlar", "Başcı koramal", "Koramal arzusu", "Quş qribi", "Vergi pulu", Tabdan düşən caqqal", "Tülkü təəssüfü"təmsilləri Asim Yadiğarın " Kölgə", " Sir və dovşan" təmsilləri Ədülfəz Ülvü "Qoyun", " Qurbağa", "Dəvə və fil", "Od və su", "Tikan kolu", "Bülbül və qaz", "Qartal zirvəsi" və s. Həsənəli Eyvazlı "Bal arısı və əqrəb", "Sican fil qulağında" Sultan İsmayıl "Zinqrovlu canavar" Elbəyi Sadıqoğlu "Dil xəyanəti", Caqqal təəssübü", "Hörümcək"," Donuz xəstəliyi", Plagiat toyuq", "Tula aslan rolunuda" və s.Hüseyn Fərəcoğlu "Tülkü və ilan", "Kirpilərin söhbəti", "Qızılgül və tütün yarpağı", "Bülbülün cavabı", "Limon və sarımsaq" və s. Tağı Şabanoğlu "Əməlinin bəlası", "Kəlbətinin qəzəbi", "Xallı pişik", "Qəribə ağsaqqal" Budaq Təhməz "Güləyən sican" Zaur Vedili "Mübahisə", "Qarğa və bülbül", "Köpəyin lovğalığı" Qafar Qəribin "Müstəqil quşlar"Nazlı Hacılı "Pişik və sican", "İlan və kərtənkələ", "Qurbağanın ad günü" İlyas Fərəməzoğlu "Pişiyin İntiqamı", "Qartal ömrü" Tofiq Qəbul "lovğa qar", "Düzən" Ələsgər Nehrəmli "Ayı","İlan", "Su", "Tısbağa", "Bülbül naləsi" Şirməmməd Qüdrətoğlu "Quyruğun gileyi", "Müdir-qolcəkən", "Qurdun qocaqlığı" ,"Diaqnoz" Firudin Süleymanoğlu "Dəniz və cay" "Sərcələr" "Tülkünün yaltaqlığı" Sürəyya Nəsib "Qələmin cavabı" "Cəyirtkə", "Kirpinin əsiri" Qabil Abbas "Yalquzaq", " "Caqqal", "Tula" Vəli Qaraxan "Qoyunlar", "Hökumdar fərmanı", Asif Atəşli "Tikan və gül", "Qacıb gedəydim", "Tələdi", "Kötək", "Tülkü və bozdar" Rahilə Nuriyeva "Arıların mübahisəsi", "Qarğa və leylək" Malik Məmmədov "Cinar və sarmaşıq" Məhərrəm Hüseynov "Qaşıq və qazan", "Sican" Zeynəb Naxcıvanlı "Dəniz və damla", "Vərəq və qələm" Əziz Kərimoğlu "Dilin bəlası", "Ala qarğa" və s. Tofiq Cəlilov "Buz möhkəmliyi" ,"Əslini unudan pişik", "Süpürgə" Zeynalabdin Novruzoğıu "Şirin qorxusu", "Ayının oyunu", "Caqqalın mahnısı" və s. Qanun Ümman "Zəhmətkeş qarışqa", "Durna və qarğa", "Sican və pişik" Gülşən Azəri "Torpaq və su" Aytəkin Dərya "Hörümcək və günəş, "Ağac və bağban", "Günəş və qara bulud" cap olunmuşdur. Kitabda toplanmış təmsillər mövzu baımından əhatəlidir. Burada fikir aydınlığına, müasirliyə, ictimai tərbiyəvi mənaya xüsusi əhəmiyyət verilib Bu təmsillərdə nankorluq, acgözlük, tamahkarlıq, piyakarlıq kimi mənfi xüsusiyyətlər pislənilir.

"Şeir və hekayələr" kitabında Bayram İsgəndərlinin "Bir babam var"," Ordubad limonuna limon catmaz", "Oğru qarğa", "Torba" Dilsuz Dünyamalıyev "Qarışqa əhvalatı", "Tülkünün hiyləsi", Zınqrovu kim acacaq" Əbülfəz Əsğərli "İlqar və Vüqar" Firudin Süleymanoğlu "Satqın olmasaydı", Köhnə tanışlar", "Nankor", " Zəngulə vurmaq istəyirəm", "Ayı ki, ayı" VƏ şeirlər İbrahim Yusifoğlu "Nəzakət, hörmət, dostluq", Aysun və cücə" Səhlab Məmmədov "Oğıuma" Əbulfəz Ülvi "Məktəbli qız", Yalanın fəsadları" Elbəyi Sadıqoğlu "Sacın niyə ağarıb? "Nəvəmin suallarına cavab" Qafar Qərib "Mənim laylam- "səngi"dir" Sürəyya Nəsib "Təmizlik", "Vaxt" Nazlı Hacılı "Cəza", "Sona və dana" Sultan İsmayıl " Dolaşalar", "Hər şey istəyən Elşən" Zeynəlabdin Novruzoğlu "Qoca və cörəksatan" kimi şeirlər yeni nəsillərə catdırılmalı ümumi ədəbiyyatla birlikdə uşaq ədəbiyyatının inkişafına yeni-yeni töhfələr verirlər.

Naxcıvan ədəbi mühitində uşaq ədəbiyyatı ilə bağlı son illərdə meydana gəlmiş, ədəbi yaradıcılıqla məşqul olan yazarların əsrlərini nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olar ki, uşaqlar üçün yazan qələm sahiblərimiz öz imkanları çərçivəsində balaca oxucuların təlim-tərbiyəsinə mənəvi dəyərlərin inkişafına və formalaşmasına təsir edən əsərlər yazmağa çalışmışdılar. Müasir dövrdə Hüseyn İbrahimov, Cavad Cavadlı, Elman Həbib, İbrahim Yusifoğlu, Asim Yadiğar, Muxtar Qasımzadə, Sultan İsmayıl, Budaq Təhməz, Bayram İsgəndərli, Həsənalı Eyvazlı, Əbülfəz Ülvü, Zaur Vedili, Qafar Qərib Elxan Yurdoğlu və başqaları öz əsərlərində tam bir tərbiyə sistemi formalaşdırmaqla maraqlı və ibrətamiz əsərlər yazmışlar.Göründüyü kimi onu da qeyd etmək lazımdır ki, bağçayaşlı uşaqları nəzərdə tutub şeir yazan şair onu da düşünməlidir ki, yazdığı bədii əsərin dili olduqca sadə, konkret, məzmunu aydın olmalıdır. Həm böyüklər, həm də uşaqlar üçün yazan şairlərimizdən biri də İbrahim Yusifoğludur. Onun "Bulaqda yazdır" şeirinə diqqət edək:

Qışın oğlan çağında
Hər yana ələnib qar.
Ağaclarsa, şaxtadan
Sırsıra bağlayıblar. (Namazov, 1984; s.39)

Burada yeddi hecalı şeir yazılmış, qışın gəlişi təsvir olunur. Kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulub, dörd fəsildən biri olan qışın orta ayıdır, hər tərəf qarla örtülüb, ağaclarda qarın altında qalıb, sırsıra bağlayıb, yəni buza dönüb. Bu müəllifin qış fəslini təsvir üsuludur. Kiçik yaşlı məktəblilərə aid yazılan əsərlər artıq əvvəlkilərdən tamamilə fərqlənir.

Belə ki, müxtəlif mövzulara müraciət edən bu sənətkarların yaradıcılığında təbiət təsviri mövzu etibarı ilə uşaq şeirlərində mühüm yer tutur. Çünki gülləri, çiçəkləri sevmək, təbiət hadisələrini öyrənmək, fəsilləri, müxtəlif mənzərələri görmək uşaqlar üçün maraqlıdır. Bu baxımdan B.Təhməzin "Gülün səhvi" İ.Yusifoğlunun "Ağlayan güllər", "Bənövşə", "Nar çiçəyi", "Badam ağacı", M.Tahirin "Yaz nağılı", "Kəpənəklə oynayan qız", "Şeh düşəndə", "Bahar nənə", "Günəş harda yatır bəs?" "Meşə armudu", "Ağ göbələk", S.İsmayılın "Kələm", "Qələmə", "Ağ şam", "Şabalıd", "İstiot", "Bülbül", "Yasəmən", "Zirinc", Ə. Ülvinin "Ülvinin günəşi", "Elşən və ay", "Qızılgül", "Üç alma düşəndə", "Yurduma bahar gəlir" və.s şeirlərində təbiət təsvirlərinə geniş yer veilmişdir. Burada təbiətin əsrarəngiz gözəllikləri sadəcə təsvir olunmur, onları sadələşdirib şeirə oynaqlıq verərək təbiəti uşaqlara sevdirmək, onların nəzərini təbii gözəlliyə, onu əhatə edən mühitə cəlb etməklə təbiəti, vətən torpağını sevdirməyə çalışmışlar. Təbii ki, bu gün uşaq ədəbiyyatına xidmət edən, ədəbi yaradıcılıqla məşğul olan hər bir sənətkar yazdığı əsərin məhsuliyyətini daşımalı, (Həşimli, 2007; s.56) elə əsərlər yazmalıdır ki, bugünkü zamanla ayaqlaşa bilsin. Zaman çox dəyişilmiş, çoxlu dəyişiklik etmək günün tələbinə çevrilməkdir.

Bədii yaradıcılıqla məşğul olan elə bir yaradıcı ziyalı tapmaq olmaz ki, gənc nəslin təlim-tərbiyəsi ilə bağlı mövzulara toxunmasın. Bunu tapmaq çox çətindir. Çünki bugünkü nəsil sabahkı millətdir. Sabahkı milləti dünya sivilizasiyası səviyyəsinə qaldırmaq üçün dünyada baş verən ən yeni ictima-siyasi prosesi, elmi-texniki yenilikləri bütün bunlarla yanaşı tarixi keçmişimizi bugünkü nəsilə aşılamalıyıq. Bir uşaq öz keçmişini bilmirsə, o, öz ata –anasına, böyüklərinə laqeyd qalacaq. Çünki daxilimizdə gedən ideoloji təxribat iqtisadi çətinlikdən istifadə edib, yeniyetmələri yolundan azdırır, onları başqa dinlərə, təriqətlərə təhrik edir. Buna görə də, biz həm ulu keçmişimizin maddi və mənəvi sərvətlərini araşdırıb, üzə çıxarmalı, həm də sabahkı yenilikləri öyrənməli və öyrətməliyik.

Müstəqillik dövründən bəri tarixi mövzulara daha çox üstünlük verilir. Bu, yaxşı əlamətdir. Çünki bu mövzulara daha çox ehtiyacımız var (Namazov, 1984; s.71)

Tariximiz yenidən yazılır araşdırılır və tədqiq edilir. Sovetlər dönəmində yazılmış tariximizə yenidən baxılır. Əlbəttə, tarixdə xidmətləri olan hər bir elm, maarif, sənəd adamları haqqında yazmaq vacibdir. Lakin bununla yanaşı bügünkü uşaqların həyatından, taleyindən, problemlərindən keçdikləri ağır sınaqlardan da yazmaq lazımdır. Adətən, müraciət olunan mövzuların əksəriyyətində nənə-nəvə, baba-nəvə söhbəti çılpaq tərbiyə məsələləri ənənəvi qaydada bir-iki epizodda təsvir olunur. Bu gün biz hiss və duyğularımızı oxuyub –yazan kompyuter zamanında yaşayırıq. Bəşəriyyətin ən yeni kəşflərini elmə bələd olan qələm sahibləri adi anlaşılan hekayələr vasitəsilə yeniyetmələrə öyrətməlidirlər. Dünya günü-gündən dəyişir, dünənki yenilik bu gün köhnəlir, insanlar daha yenisini gözləyir. Bizim azyaşlı nəslimiz bu yeniliyə

bələd olmasa, ümumbəşəri dəyərlərdən məhrum olar.

Azərbaycan Respublikasının əldə etdiyi müstəqillikdən sonra uşaq ədəbiyyatı sahəsində az da olsa, yeni səpkili əsərlərin yazılmasına meyil artmışdır. Azərbaycan uşaq ədəbiyyatının son onilliklərdəki nailiyyətlərinə diqqət yetrirdikdə bir daha bizə aydın olur ki, söz sənətimizin bu sahəsinin məhsuldarlığı inkişaf edir.Biz bu mənada uşaq ədəbiyyatının ilkin cücərtilərini görürük (Abbasov, 1962; s.158)

İnsanın gələcək həyatının təməli körpəlikdən başlayır.Təməl nə qədər möhkəm, nə qədər ehtibarlı olarsa, övladlarımız da psixoloji cəhətdən o qədər sağlam, gümrah böyüyər,onların gələcəyi də fərəhli olar. Bu isə ciddi təlim-tərbiyə ilə mümkündür. Dünya inkişaf edir.Texnologiya, əyləncə təlim-təhsillə birlikdə düşüncə tərzimiz də sürətlə dəyişməli, inkişaf etməlidir.

Belə bir zamanda yaranan uşaq ədəbiyyatı müasir dövrün tələbləri baxımından qurulmalı, bu dövrü əhatə edən istiqamətdə mövzularla yenilənməlidir. Uşaq ədəbiyyatı ictimai və sosial məzmunu ilə öz ərazisini genişləndirməli, ümumiyyətlə, uşaq ədəbiyyatı dövrün tələbinə abı -havasına uyğunlaşarsa, onda həmin əsəri oxuyarkən bilinməlidir ki, bu əsər hansı zamanı əhatə edir. 1980-ci ildə yazılıb yaxud 2000-ci ildə. Əvvəlki dövrlərdə yazılmış ədəbiyyatda bu fərqi görmək mümkündür. Bu fikirlərlə şərikəm ki, şeir öz zamanına oxşamalı və bütün dövrlərdə öz bədiiliyini qoruyub saxlamalıdır.

Son ilin uşaq ədəbiyyatının ədəbi mənzərəsinə diqqətlə baxanda bir çox ədəbi hadisələri aydın görmək olar. Həmin ədəbi hadisələrdən biri ölkə prezidenti tərəfindən 2009-cu il "Uşaq ili "elan olundu. Bu qərardan sonra uşaq ədəbiyyatı ilə bağlı məsələlər gündəmə gəldi. Bundan sonra dəyirmi masalar, konfraslar keçirildi. Dövrün ictimai-siyasi və sosial iqlimi uşaq ədəbiyyatına da təsir etdi. Bundan sonra uşaq ədəbiyyatı sahəsində inkişaf bir-birinin ardınca maraqlı, zəngin, parlaq səhifələr aydın görünməkdədir.

Təbii ki, bu baxımdan uşaq tamaşalarının da mühüm əhəmiyyəti var. Bu tamaşalar inkişafa xidmət edir, sosiallığı inkişaf etdirir. Belə uşaq teatrlarından biri də Naxçıvan şəhərində Məmməd Tağı Sidqi adına kukla teatrıdır. Uşaqların düşüncə şəklini formalaşdırmaq, öz maraqlı repertuarları ilə balacaların fikir dünyasına nüfuz etmək uşaq teatrının əsas vəzifələrindən biridir. Bu uşaq teatrı da Azərbaycan xalq nağılları əsasında hazırlanmış pyeslərə daha çox üstünlük verir. Çünki nağıllarımızın unudulmağa üz tutduğu, kitab oxumaq vərdişinin getdikcə azaldığı, insan əlaqələrinin zəiflədiyi bir dövrdə uşaqlarımız bir çox şeyi kitablardan yox, saatlarla sərf etdikləri televiziyadan və uşaq teatrlarından öyrənə bilərlər.

Uşaqlar üç yaşında zəngin bir xəyal təxəyyülünə sahib olur, dörd yaşında isə davamlı ətrafı tanımaq vərdişləri qazanırlar.Qeyd etmək lazımdır ki, bu dövrdə uşaqlar prototip olaraq baxdıqları tamaşaların qəhrəmanlarını unutmur, onları düşünürlər.

Yaxşı olar ki bu gün xarici cizgi filimlərinə "Pepe", "Leliko" və s. baxdıqlarını Azərbaycan cizgi filimlərinə baxsınlar. 2008-ci ilin sentyabrından Heydər Əliyev fondu Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə bigə Azərbaycan cizgi filimləri toplusunu hazırlayıb. Azərbaycan animasiyasının 75 illiyi münasibətilə işıq üzü görən DVD diskinə müxtəlif illərdə çəkilmiş və azərbaycan dilində bərpa olnunmuş doqquz film daxildir. Bunlardan başqa, müxtəlif internet saytlarında yerləşdirilən və milli dəyərlərimizi nümayiş etdirən Azərbaycan cizgi filimlərini: "Balaca çoban", "Şah və xidmətçi", "Kitabi Dədə Qorqud", "Humayın yuxusu", "Cavanşir", "Çətin məsələ", "Basat və Təpəgöz", "Tıq-tıq xanım" və sairi övladlarımıza seyr etdirə bilərik (İsmayılova, 2016; s. 5)

Milli dəyərlərimizi nümayiş etdirən digər vasitələr nağıllar, hekayələr, qaravəllilər və lətifələrdir. Bunlar xalqımızn zəngin yaradıcılığının bir qismidir. Bu gözəl sənət nümunələrində Azərbaycanın tarixi, ictimai əlaqələri, xalqımızın arzu və dilələri ilə birlikdə etiqadı ,milli dəyərlərimiz yer almaqdadır.

## Nəticə

Yekun olaraq deyə bilərik ki, belə bir zamanda yaranan uşaq ədəbiyyatı müasir dövrün tələbləri baxımından qurulmalı, bu dövrü əhatə edən istiqamətdə mövzularla yenilənməlidir. Neçə ildir ki, uşaq şeirindəki obrazlar eynidir. Biz zamanla ayaqlaşmalı bu zamandan geri qalmamaliyiq. Belə ki, uşaq ədəbiyyatı ictimai və sosial məzmunu ilə öz ərazisini genişləndirməli, uşaq ədəbiyyatının fəlsəfəsi, dili inkişaf etməli, uşaq şeiri uşaq folkloruna söykənməlidir. Eyni zamanda da qədim yurd yerlərimizin şəhidlərimizin, milli qəhrəmanlarımızın obrazını ümumiyyətlə son dövrlərdə baş verən hadisələr uşaqların çəkdiyi əzab və əziyyətlər, istirablar Qarabağ mövzusu uşaq ədəbiyyatına gətirməliyik.

XXI əsr - həm də müstəqillik dövrü Azərbaycan ədəbiyyatının özünütəsdiq mərhələsidir. Bu dövrdə artıq müstəqil Azərbaycanda demokratik cəmiyyət quruculuğunun inkişaf etdirilməsi, milli-mənəvi dəyərlərin dərinləşməsi və sabitləşməsi ədəbiyyatın da həyatı və insanı daha dərindən, əsaslı şəkildə dərk etməsi, milli meyarlara və dövlətçilik maraqlarına həmahəng surətdə inkişafını təmin etmişdir.

Artıq müstəqillik dövrü Azərbaycan ədəbiyyatının sadəcə mövzuları, obrazları və janrlarının deyil, bütövlükdə xarakterinin dəyişməsi və əsas inkişaf xüsusiyyətləri haqqında ciddi elmi qənaətlər irəli sürülmüşdür:

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı belə çətin, ağrılı, mürəkkəb, lakin zəruri prosesləri keçərək çoxsəsli, çoxmetodlu ədəbiyyat kimi formalaşmışdır. Fikrimizcə, müstəqillik epoxasında yeni ədəbi cərəyanların yaranmasında adıçəkilən ədəbi qrup və birlikləri mühüm rolu olmuşdur (Həbibəyli, 2006; s.15)Azərbaycan ədəbiyyatı milli ədəbiyyatın böyük örnəklərini meydana qoyur, dünya təcrübəsinə və ölkə reallıqlarına əsaslanmaqla çoxəsrlik Azərbaycan ədəbiyyatını yeni mövzular, cəlbedici bədii formalar, fərqli obrazlarla daha da zənginləşdirməyə uğurla xidmət edir.

## Kaynakça

Abbasov, Ə. (1962). *Seçilmiş əsərləri*. Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı.

Axundov, A., & Əfəndiyev, E. (2000). *İşıqlı adamlar (Naxçıvanın görkəmli adamları haqqında).* Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı.

Əliyev, H. (1999). Azərbaycan Respublika prezidenti H.Əliyevin nitqi. *Azərbaycan məktəbi jurnalı, 1999,* (5), 8.

Həbibəyli, İ. (2006). *Ədəbiyyat və mətbuat sahəsində*. Bakı: Nurlan nəşriyyatı.

Həşimli, H. (2007). *Əli Səbri*. Bakı: Nurlan.

İsmayılova, N. (2016). *Naxçıvan ədəbi mühiti: uşaq ədəbiyyatının inkişaf istiqamətləri və problemləri* (dərs vəsaiti). Bakı: Elm və təhsil nəşriyyatı.

Namazov, Q. (1984). *Azərbaycan uşaq ədəbiyyatı* (Ali məktəb üçün dərslik). Bakı: Maarif nəşriyyatı.

Yusifoğlu, İ. (2001). *Arpa çayın uşaqları* (Şeirlər). Bakı: Şirvan nəşriyyatı.

**Extended Abstract**

After the independence of the Republic of Azerbaijan, the tendency to write new works in the field of children's literature has increased. When we pay attention to the achievements of Azerbaijani children's literature in recent decades, it becomes clear to us once again that the productivity of this field of our word art is developing. In this sense, we see the first sprouts of children's literature. In recent years, many works on children's literature have been written in the literary environment of Nakhchivan.

The collection of poems, poems, stories and narratives "Children and the Sun" is based on the works of poets and writers living and working in Nakhchivan. In addition, compiled in accordance with the instructions of the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic at the conference of the Writers' Union of Nakhchivan Autonomous Republic in 2012 According to the Action Plan, four books on children's literature were published. Among them are “Poems and plays”, (2014) “Fables”, (2014) “Poems”, (2017) “Poems and stories” (2014) All these works serve the development and enrichment of children's literature.

In these works published in the book, children's literature has significantly expanded its territory with its social and social content. In children's poetry, we must create exemplary works for future generations by bringing the image of our ancient martyrs and national heroes to children's literature.